# ZİYALILIQ TƏCƏSSÜMÜ İNSANLAR

**Azərbaycan ziyalısı hələ təhsilin başlandığı illərdən Şərq aləmində özünü göstərməyə başlayıb. Tarix boyu dövlət idarəsi, ictimai, iqtisadi həyatda ziyalılarımızın böyük rolu olub. Tərəqqiyə doğru gedən yolda, azadlıq və rifahın təmin olunmasında başlıca amil ziyalılardır. Keçmişə baxdıqda görə bilərik ki, niyə Böyük Monqol imperiyası, Hülakü dövləti Azərbaycan torpaqlarını işğal edəndə ilk olaraq ziyalıları öz dövlətinə apardı? Nəsirəddin Tusi xan məsləhətçisi deyildimi? Niyə bir hökmdar hər işini bir alimlə danışırdı? Sovet imperiyası repressiyaya başlayanda niyə ziyalılarla başladı? Çünki bir xalqı məhv etmək, adını yer üzündən silmək üçün onun ziyalısını məhv etmək kifayət idi.**

Lakin bu olmadı. Azərbaycan ziyalıları nəsli bütün çağlarda öz sözünü dedi və halhazırda da deyir. Onların adları çoxdur, saymaqla bitməz. Bu yazıda isə həmin Azərbaycanın firavanlığı naminə çalışan ziyalılardan Abdulla Ələkbərov və Rafiq Ələkbərovdan danışacağıq.

Abdulla Hüseyn oğlu Ələkbərov 1912-ci ildə Qəbələnin Kürd kəndində anadan olub. Onun bir qardaşı və bir bacısı var idi. Abdulla müəllim yeddi yaşında olarkən artıq anası, atası və sonra da bacısı bu dünyadan köçmüşdülər. Qardaşı 2-ci dünya muharibəsinə əsgərliyə göndərilir. Bir müddət sonra qardaşının cəbhədən gələn ölüm xəbəri onu sarsıdır. Həyatın acı həqiqətləri, ağır üzləri Abdulla müəllimi çox tez tapır. Tənhalıq, sevdiklərini itirmədən yaşadığı vəziyyət onun xalqı üçün faydalı bir şəxsiyyəti olmasını əngəlləyə bilməyib. O, həyatın acı imtahanlarına sinə gəlir və ardıcıl muvəffəqiyyətlərə qədəm qoyur. Orta məktəbi əla qiymətlərlə qurtarandan sonra ali təhsilini almağa başlayır. Əvvəlcə Gəncə Pedaqoji Texnikumuna, sonra da Bakıda ali təhsil ocağına daxil olur və hər iki təhsil müəssəsini da fərqlənmə ilə başa vurur.

Abdulla Ələkbərov öz həyatını maarifin, işıqlı gələcəyin ən məsuliyyətli sahəsinə bağlayır. Bu, pedaqoji fəaliyyət, müəllimlik idi. Mustafa Kamal Atatürk demişkən, "cəmiyyətin düşməni cəhalət, cəhalətin düşməni isə müəllimlərdir". Abdulla müəllim də bu cür ağır bir işin öhdəsindən gəlməyi özünə məqsəd bilmişdi. Qəbələdə müxtəlif məktəblərdə həm direktor, həm də müəllim işləmiş Abdulla müəllim təpədən dırnağa qədər ziyalılıq, maarifçilik təcəssümü idi. O, el-obasının işıqlı gələcəyini təhsildə, elmdə və daimi inkişafda görürdü. Abdulla müəllim ərəb dilini mükəmməl bilirdi. Bugün Qəbələ rayonunun bir çox say-seçmə ziyalıları, müəllimlik peşəsinin ömrünün mənası hesab edən tanınmış pedaqoqların əksəriyyəti Abdulla müəllimin "şinelindən" çıxıb. Onun pedaqoji fəaliyyətinin çox önəmli hissəsi Böyük Vətən müharibəsinin ölkənin bütün sahələrində, o cümlədən, xalq maarifinə vurduğu yaraların "müalicəsi" illərinə təsadüf edirdi. Həmin illərdə Kürd kəndinin oğul balaları uşaqlığın sevincini dadmadan kişiləşərək əmək cəbhəsində əsgərlikdən dönməyin atalarını, böyük qardaşlarını əvəz etməyə məcbur olmuşdular. Bax, belə bir zaman kəsiyində Abdulla müəllim özü cavan olsa da, ağsaqallıq missiyasını öz üzərinə götürəndən oldu. Tədricən dirçəlməkdə olan Kürdün məktəbdən yadırğamış yeniyetmələrini təhsilə cəlb etməyi öz üzərinə götürdü. Əlbəttə ki, bu işə başlayan zaman onun məsuliyyətindən də Abdulla müəllim də xəbərdar idi. Lakin qarşısına məqsəd qoymuş və cəmiyyətə fayda vermək istəyən ziyalının tək bir istəyi bütün çətinlikləri yox etməyə qadir idi. Belə ki, kəndin vaxtından çox-çox əvvəl kişiləşən gəncləri məktəbə gəldilər, əmək alətlərini yerə qoyub əllərinə qələm aldılar və Abdulla müəllimin köməkliyi ilə təhsilə isinişdilər. Həmin gənclərin əksəriyyəti orta təhsil alıb, ali məktəbə üz tutdu. Həmin illəri və çətinlikləri göz önünə gətirəndə fəxr edirik ki, Abdulla müəllimin yetişdirdiyi həmyerlilərimiz cəmiyyətdə layiqli yerlər tuturlar. Onun öz miqyasında başladığı bu işi oğluna ötürdü. Atadan oğula maarifçilik, ziyalılıq keçdi. Pedaqoji fəaliyyətlə olmasa da, cəmiyyətə xidmət etmək üçün hər bir yoldan istifadə etmək oğlu Rafiq Ələkbərova elə atasından yadigar qalmışdı.

Ataların məşhur bir deyimi var: ot öz kökü üstə bitər. Elə bu yazıda da bir atanın ziyalı tarixini onun varisi, oğlu davam etdirib desək, yerinə düşər.

Rafiq Abdulla oğlu Ələkbərov 1939-cu ilin 17 mayında təbiəti səfalı Qəbələ rayonunun Kürd kəndində ziyalı ailəsində anadan olub. Rafiq Ələkbərov sözün əsl mənasında müəllimlər müəllimi Abdulla müəllimin oğlu idi. Atasının elm, irfan çeşməsindən su içmişdi. Bir ziyalı ailəsinin övladı hər zaman hər yerdə fərqlənir. Bu xüsusiyyət özünü dünyagörüşündə də, hadisələrə baxışında da göstərir. Rafiq müəllim atasının ziyalılıq çalarlarından, maarifçilik çırağından qidalanaraq böyük həyata əsl ata qüruru ilə möhürlənmiş vəsiqə almışdı. O, boy-buxunda da, insanlarla ünsiyyətdə də, ailəcanlılıqda da atası ilə eyni idi. Onunla görüşənlər, onun təmkinli danışığına qulaq asanlar dərhal Abdulla müəllimi gözləri önünə gətirirdilər. Rafiq müəllim atasını xatırlatmaqla həm öz ailəsinə layiq olduğunu göstərir, həm də öz şəxsini yüksək səviyyədə yetişdirirdi.

Rafiq müəllim Qəbələ rayon orta məktəbini əla qiymətlərlə bitirib. Daha sonra təhsilini davam etdirərək Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) jurnalistika fakültəsində oxuyub. 1963-cü ildə fakültəni bitirərək 1956-cı ildən əmək fəaliyyətinə başlayıb. Həmin ildən Azərbaycan KİV-i ilə əməkdaşlığa başlayıb. Bir sıra mətbu orqanlarında, o cümlədən, Qəbələ rayon qəzetində ədəbi işçi, 1963-1965-ci illərdə "Sovet kəndi" qəzeti redaksiyasında korrektor, ədəbi işçi, xüsusi müxbir, məsul katib və şöbə müdiri vəzifəsinə qədər pillə-pillə irəliləyib. Fərqləndirici keyfiyyətlərinə görə o, 1977-1979-cu illərdə Moskva şəhərinə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi (Sov.İKP MK) yanında İctimai Elmlər Akademiyasında dinləyici kimi kurslarda iştirak etmək üçün təyinat alıb.

Fəaliyyətini davam etdirən Rafiq müəllim Bakıya qayıtdıqdan dərhal sonra sərəncama əsasən Azərbaycan Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsində təlimatçı kimi İdealogiya və Təşviqat şöbəsində fəaliyyətini davam etdirərək 1979-1986-cı illərdə həmin vəzifədə çalışıb. 1986-1992-ci illər arasında isə ,o, Kommunist Partiyası Mərkəzi Komitənin orqanı olan "Təşviqatçı" və "Aqitator", sonradan "Dialoq" adlanan jurnalda baş redaktor vəzifəsində çalışıb. Bir KİV işçisi, jurnalist, redaktor və digər vəzifələrdə əldə etdiyi nailiyyətlərə, əldə etdiyi uğurlara və jurnalistikanın daimi inkişafına verdiyi mütəmadi töhfələrə görə 1989 ildə "Azərbaycan Respublikasının Əməkdar Jurnalisti" fəxri adına layiq görülüb. Jurnalistlik fəaliyyətindən əlavə də bir sıra vəzifələrdə çalışan Rafiq müəllim 1992-2000-ci illərdə Bakı şəhəri Nizami rayon İcra Hakimiyyəti başçısının köməkçisi, ərazi üzrə idarəetmə orqanları ilə iş şöbəsinin müdiri vəzifəsində, Azərbaycan Respublikası Vergilər nazirliyinin kadr siyasəti və hazırlığı idarəsində aparıcı mütəxəssis vəzifəsində çalışıb və öz istedadını, bacarığını yüksək səviyyədə nümayiş etdirib.

Harada, nə vəzifədə işləməsindən asılı olmayaraq onun başlıca amalı, istək və arzusu Vətənə, xalqa, dövlətə və dövlətçiliyə sədaqətlə xidmət göstərmək, insanlarla dostluq və əməkdaşlıq etmək, xalqın maariflənməyindən ötrü əlindən gələni əsirgəməmək olub. Azərbaycanın elə bir guşəsi yoxdur ki, Rafiq Ələkbərovun sədaqətli, etibarlı və səmimi dostları tapılmasın. Təbii ki, bu hörməti qazanmaq asan iş deyil, lakin düzgün yolda irəliləyən biri üçün bu o qədər də çətin sayılmaz.





Rafiq müəllim cəmiyyətdə gedən proseslərə biganə qalan insan deyildi. Azərbaycanın dərdi-səri, xüsusən də, Qarabağ problemi ürəyində ağır yük idi. Elini-obasını, göz açdığı Qəbələ torpağını çox sevirdi. Hər kəsə öz doğulduğu torpağı əzizdir əlbəttə ki. Elə buna görə də, o, Qəbələnin bəhrəli bağlarından, güneyli-quzeyli dağlarından, səfalı yaylaqlarından, Duruca bulaq suyunun hikmətindən tez-tez, həm də fərəh və həvəslə bəhs edərdi. O, qürurla doğma torpağının yetirdiyi adlı-sanlı adamları, tarixi şəxsiyyətləri ilə fəxr edərdi. Hamı bilir ki, Qəbələ RLS ən yaralı yerlərimizdən biri idi. Tez-tez iradını dilə gətirir və deyərdi: "Bu Qəbələ RLS ətraf rayonların əhalisinin axırına çatdı, uşaqların şikəst doğulmalarının səbəbkarı, əhalinin baş-bədən ağrılarından şikayətlənmələri bu biabırçı stansiyanın fəaliyyəti ilə əlaqədardır. Şüalanma burda çox güclüdür". Keçmiş SSRİ dağıldıqdan sonra RLS bir müddət fəliyyət göstərmədi və nəticə etibarı ilə bu, camaatın yüksək əhval-ruhiyyəsində hiss olunurdu. İndiki zamanın özündə Qəbələ camaatı bunu təsdiqləyə bilər. Rafiq müəllim bir vətəndaş, ziyalı kimi həmişə həyəcan təbili çalırdı. Çünki torpağı, həmyerliləri üçün narahat idi, o, özünə başlıca iş kimi xalqın insanların qeydinə qalmağı seçmişdi. Həqiqətən də, Rafiq müəllim doğma Azərbaycana və onun ayrılmaz tərkib hissəsi olan Qəbələyə çox bağlı idi.

Hamıya yox yerdən əl tutan, kömək edən Rafiq müəllim xeyirxahlığı, ziyalılığı, çətin anlarda əl tutmağı mərhum atası Abdulla müəllimdən əxz etmişdi. Bakıda yaşamasına baxmayaraq daima Qəbələnin problemləri ilə məşğul olurdu. O, burada əmək qəhrəmanlarının üzə çıxmasında öz əməyini əsirgəməyib. Rafiq Ələkbərov hərtərəfli və işıqlı bir şəxsiyyət idi. Dövlət aparatında işlədiyi müddətdə də rayona gəlib köhnə dost və yoldaşları ilə görüşərdi. O, dərin təfəkkür nəticəsində düzgün nəticəyə gələn, hadisələrin önündə gedən, ətrafına dövrün, zamanın layiqli adamlarını toplayan, nəcib və dəyərli adamlarla ünsiyyət saxlayan, əsl dostluq edən insan idi. Dostluqda möhkəm olan Rafiq müəllim eyni zamanda çox prinsipial idi və dostluğa xəyanəti bağışlamazdı. O, çox saf, təmiz, kövrək və büllur kimi bir ürəyə malik insan idi. Daim optimist qalmağa çalışırdı.

Rafiq müəllim hələ uşaqlığından bəri həyatın və müharibədən sonrakı dövrün hər bir əzab-əziyyətinin şəxsən şahidi olub, onları yaşayıb, lakin ruhdan düşməyərək həyatın bu imtahanlarından uğurla çıxıb. Dost-tanışlarına göstərdiyi sədaqət və vəfanı öz ailəsinə göstərərək həyatında ləyaqətli ər, layiqli ata olub. Hər zaman vicdanlı işçi, yaxşı dost, tanıdığı-tanımadığı insanlarla münasibətdə təmənnasız olan bir insan kimi dəyişməz qalaraq yaşayıb. Rafiq Ələkbərov ürəyi üzündə olan insan idi. Doğruluğun əvəzolunmaz gözəlliyini, yalanın isə necə parçalayıcı bir ünsür olduğunu dərindən bilən Rafiq müəllim dostdan, yoldaşdan sirr saxlamazdı, çox nikbin insan və etibarlı dost idi. Onunla ünsiyyətdə olarkən insanda yaşamaqa həvəsi yaranardı. Onun həyata baxışı hər zaman firavan gələcəyin gəlməsi ilə bağlı idi. Rafiq müəllim bütün məclislərin yaraşığı olub iştirak etdiyi məclislərdə insanlarda təbəssüm, şən əhval-ruhiyyə yaradırdı.

Dünya həyatının faniliyi onun keçməsindən, bir gün mütləq yox olmasından qaynaqlanır. Əlbəttə ki, hər bir canlı bir gün dünyadan əbədi aləmə köçür. Lakin cəmiyyət üçün xeyirli, faydalı insanların, ziyalıların ölümü hər zaman hər kəs üçün ağır olur. Amansız ölüm Rafiq müəllimi vaxtsız alıb apardı. Neçə-neçə arzusu qönçə kimi soldu. Rafiq müəllim dünyasını dəyişsə də, bizim xatirəmizdə daim xoş sözlə anılır. Yaddaşımıza həkk olunan xatirələri çözələyəndə bəzən dodaqlarımıza təbəssüm qonur, bəzən isə gözlərimizdə bir nisgil görünür.

Qəbələ mahalının Düz Yengicə deyilən bir məkanı var. Bura sehirli və müqəddəs bir guşədir. Həmin torpağı arxadan başı qarlı Böyük Qafqaz sıra dağları, öndən Qaşdağı, sağdan Kohmurad dağı, soldan isə Eldar dağı dövrəyə alıb. Bir tərəfdən Savalan, Çarxana, Şamılı, Hacallı, digər tərəfdən isə Kürd, Bayramkoxa, Mamaylı, Əmili kəndləri, Rafiq müəllimin doğulduğu Düz Yengicə məkanın onun kimi böyük insan yetirməsi təbiidir. Doğma kəndinə möhkəm bağlı olan Rafiq Ələkbərovun heç də təsadüfi olmayan vəsiyyəti də bunu göstərirdi. O, övladlarına tapşırmışdı ki, onu doğma kəndində, Qaş adlanan yerdə dəfn etsinlər. Pərvazlandığın, qanadlandığın yuvaya dönməyin xoşbəxtliyi isə elə düşmür, hər adama qismət olmur. Allah rəhmət eləsin!

**Ustad Şəhriyarın da dediyi kimi, adam gedər, ad qalar. Onun da adı hələ də yaşayır. Qəbələ rayon tarix-diyarşünaslıq muzeyində Rafiq Ələkbərovun həyatını və fəaliyyətini əks etdirən sənədlər, fəxri fərmanlar və əmək fəaliyyətinə aid şəxsi əşyalardan ibarət güşə yaradılmışdır. Rafiq müəllimə verilən qiymətlər sırasında xüsusi yeri olan, onun xatirəsini əbədiləşdirən "Cənnətdə nə var, nə yox, Rafiq müəllim" adlı kitabının bir nüsxəsi də həmin guşədədir. Həmyerlisi Akif Cabbarovun redaktoru olduğu bu kitabda Rafiq müəllimin dostları, qohum-əqrəba və ailə üzvlərinin səmimi xatirələri ilə və Rafiq Ələkbərov haqqında əlavə məlumatla tanış olmaq olar.**

**Nurlan Ağa**
**BDU jurnalistika fakültəsinin**
**III kurs tələbəsi**